# Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiya üzvlərinin sayı 9 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının mədəniyyət naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Aparatının rəhbəri

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru.

2. "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 146 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 574; 2007, № 11, maddə 1180; 2008, № 7, maddə 691; 2011, № 12, maddə 1254; 2014, № 10, maddə 1327; 2015, № 4, maddə 455, № 6, maddə 798, № 10, maddə 1247; 2016, № 6, maddə 1191) 1-ci və 2-ci hissələri ləğv edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 12 sentyabr 2018-ci il

№ 386